# HÜRRİYYƏT AŞİQİ

***Əlibəy Hüseynzadə kimi böyük bir şəxsiyyətin cəmiyyət həyatı, bəşəri taleyi, insan mənəviyyatı haqqında düşüncələrlə zəngin olan ədəbi-fəlsəfi irsi içərisindən onun redaktorluğu ilə çıxmış "Həyat" qəzetindəki bir qism əsərləri seçib təhlilə çalışmağımızın ciddi bir mənası, dərin kökü vardır. O məqam, o kökü müəyyənləşdirərkən diqqəti ilk növbədə çəkən ədibin özünə ömür qayəsi etdiyi Türkiyə xidmətidir.***

Əlibəyi təkcə Azərbaycanın deyil, bütün türklüyün oğlu sayılan, özü isə "Türk dünyasının Dədə Qorqudu" kimi bir titul almış professor Turan Yazqanın onun haqqındakı bu fikri tamamilə doğrudur: "Hüseynzadə Əlibəy doğulduğu, yaşadığı, çalışdığı yerlərə baxmayaraq bütün türk dünyasının mücahididir".

Əlibəyin düşüncələrində İslama, türklüyə, Rusiya, Şərq və Qərbə münasibət cəhətdən onillər boyu davam edən istihalə onun "Həyat", "İrşad", "Fyuzat", "Tərəqqi" və "Bakıneft" mətbuat orqanlarında çıxmış roman, məqalə, oçerklərində əksini tapmışdır.

Şərq xalqlarının, o cümlədən öz doğma xalqının tarixinə, ədəbiyyat, fəlsəfə, mifologiya, dil və təbabətinə dair zəngin biliklər sistemində iki sahəyə xüsusi diqqət yetirir: türkçülüyün tarixi, dil və ədəbiyyatda türkçülük sahələri.

"Türkçülüyün əsasları" monoqrafiyasının müəllifi professor Ziya Göyalp tələbəlik yoldaşı haqqında başqa mühüm bir faktı qeyd edir: "Əlibəy Hüseynzadə Rusiyadakı milliyyət cərəyanlarının təsirilə türkçü olmuşdur. Hələ kollecdə ikən gürcü gerçəklərindən son dərəcə milliyyətpərvər olan bir yoldaşı ona milliyyət eşqini aşılamışdır.

Ə.Hüseynzadənin siyasət sahəsində də işi artırdı. Bu, Rusiyadakından xeyli fərqli idi. Orada o, tələbə hərəkatının sıravi iştirakçısı, daha doğrusu cığırdaşı idisə, Türkiyə və Azərbaycanda Şərq istibdadını, bədnam "asiyaçılığın" timsalı olan Sultan Əbdülhəmid və Məhəmmədəli şah üsuli-idarəsinə qarşı çevrilmiş inqilabi hərəkatın ideoloji başçılarından biri olmaqda idi. 1889-cü ildə Əlibəy yazıçı, jurnalist, "Ramazan bağçası" məcmuəsi və "Türk" qəzetinin redaktoru olan Abdulla Cökdətlə, İbrahim Temo, İshaq Süquti və başqa türk ziyalıları ilə birlikdə "İttihad və tərəqqi" firqəsini yaratmışdır.

Ümumilikdə "Türk qövmlərinin bir küll, bir təşkil etdikləri" elmi-tarixi aspektdə görmək, demək olar hamıdan əvvəl onun öhdəsinə düşmüş və bu məqsədlə 1905-ci ildə "Türklər kimdir və kimlərdən ibarətdir" əsərini yazıb. "Həyat" qəzetinin dördüncü sayından başlayaraq hissə-hissə çap etdirmişdir. Əlibəy "Türklərin səhvən tatar deyilən qismi" azərilər haqqında geniş məlumat verir. O yazır ki, bunların dil və tarix cəhətdən moğullara bənzəyiş və münasibətləri" çox azdır, dilləri nisbətən qaba olmaqla bərabər Azərbaycan türkü, osmanlı, hətta cığatay şivələrindən ziyadə türkçədir". Türklərin tarix səhnəsinə çıxmaları 2000 il əvvəlki dövrə bağlanır ki, sonrakı illərin tədqiqatlarında bu rəqəmin xeyli artıq olduğu göstərilir.

Əsərin bu ən müfəssəl hissəsi Orxon çayı sahillərindəki qədim türk aşirət və qəbilələrin dini, məzhəbi, xüsusilə Şamanizm əqidəsi haqqında məlumatdır. Barada deyilir ki, qədim zamanlarda əsasən təbiətə, onun sirlərinə pərəstişdən ibarət olan Şaman məzhəbi bu gün "qaba bir bütpərəstdir" ki, kahinlərinin şarlatanlığı sayəsində davam etməkdədir. Son zamanlar "oğuz" adlanan türklərə bunlardan sonra tarix səhnəsinə çıxan uyğurların çoxu həmin bütpərəstlikdə uzun müddət səbat etməyib mürури-zamanda müxtəlif dinlərə inanmağa başladılar.

Əlibəy türklərin şair dillərə meyl və istedad göstərmədikləri, tək-tək halda meyl göstərənlərin isə milliyət və qövmiyyətlərini qeyb edərək gah çinli, moğol və hindulara, gah da əqvami-nəsaraya qarışıb qalib olduqları barədə fikrini bu cür izah edib möhkəmləndirir: "Türklər ancaq müsəlmanlığa mail və müştaq"dırlar, islamı qəbul etdikdən sonra onun "mühüm bir rüki və istinadgahı sırasına keçmişlər, türklərin öz qövmiyyət və milliyyətlərini mühafizə edib, təmini-bəqa edə bilmiş olmaları fövqəladə şayani-diqqət və mütaliə bir maddədir". Bu, dini -islama nail türklərin ərəb elmini öyrənsələr də, ərəb mədəniyyəti ilə mədəniləşsələr də "əsla ərəbləşməyib yenə türk oğlu türk qalmaları" ilə izah edilmişdir.

Elə bilirik, bu cür ciddi bədii-ideoloji konsepsiyalara əsaslanan Ə.Hüseynzadə irsi doğma vətənimiz Azərbaycanın milli istiqlaliyyət, yüksəliş, tərəqqi yolunda irəlilədiyi bugünkü şəraitdə yazıldığı vaxtdakı qədər, bəlkə ondan daha artıq əhəmiyyətlidir.

**Şöhrət İsmayılov**